**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA AİLƏ ƏNƏNƏLƏRİNƏ HÖRMƏT HİSSİNİN AŞILANMASI

İxtisas: 5804.01 - Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Fəridə Oktay qızı Nəbiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan - 2022**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi və tarixi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** pedaqoji elmlər doktoru, professor
**Akif Nurağa oğlu Abbasov**

**Rəsmi opponentlər:** pedaqoji elmlər doktoru, professor
**Fərrux Abbas oğlu Rüstəmov**

pedaqoji elmlər doktoru, professor
**Hikmət Əbdül oğlu Əlizadə**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Südabə Kamil qızı Məmmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Pedaqoji elmlər doktoru,professor
_______________ İsmayıl İsrafil oğlu Əliyev

Dissertasiya şurasının pedaqogika üzrə fəlsəfə doktoru
elmi katibi:_______________ Qızıltac Tarverdi qızı Şahbazova

Elmi seminarın sədri: pedaqoji elmlər doktoru, professor
_______________ Ləzifə Nağə qızı Qasımova

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunun-da böyüyən nəsildə "*Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, **adət və ənənələrinə,** milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq"*[1] vacib hesab olunur. Son illərdə məktəbəqədər təhsillə bağlı təsdiq edilən normativ-hüquqi sənədlərdə də uşaqların adət və ənənələr ruhunda böyüdülməsi zəruri hesab edilir. Təhsil Nazirliyinin 10 iyul 2012-ci il tarixli, 1329 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı"nda məktəbəqədər təhsilin məqsəd və vəzifələri müəyyənləşdirilərkən *"uşaqların təhsil alması, təlim-tərbiyə işinin daha səmərəli qurulması üçün milli mədəniyyətə, **adət-ənənələrə**, eləcə də müasir dünya təcrübəsinə istinad olunması zəruri hesab edilir".*[2]

Böyüyən nəsildə aşılanacaq keyfiyyətlərin arasında adət və ənənələrin xüsusi yer tutması təbii bir haldır. Belə ki, müasir dövrdə hər bir millətin özünəməxsusluğunu qoruyub saxlamasının başlıca vasitəsi ənənələrdir. Böyüyən nəsildə adət və ənənələrin aşılanmasına məktəbəqədər yaş dövründən başlamaq lazımdır. Bu yaş dövrü insan həyatının mühüm yaş dövrü olmaqla yanaşı, insan şəxsiyyətinin təməlinin qoyulduğu mürəkkəb və nisbətən çətin bir dövrdür.

Ənənələr cəmiyyətin qəbul etdiyi standartlardır. Onlar əsrlər boyu, nəsildən nəslə keçərək yaşadılmışdır. Cəmiyyətin ilkin özəyi olan ailələrin də öz daxilində ənənələr mövcuddur. Ailə hər hansı bir

---

[1]Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu// "Xalq qəzeti", 19 iyun 2009

[2] Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu). Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015,-s.9-10

fəaliyyət növünü mütəmadi olaraq davam etdirərsə, bu ailə fəaliyyəti zamanla ailə ənənəsinə çevrilə bilir. Dünyaya gələn hər fərd də bu fəaliyyət növünün bir fəal iştirakçısı olur.

Məktəbəqədər yaşlı uşaqlara ailə ənənələrinə hörmət hissinin aşılanması onların yetişdirilməsi prosesinin ayrılmaz bir hissəsidir. Ənənələr ailənin davamlılığını, birliyini qoruyan, uşaqlara ailənin əhəmiyyətini və dəyərini anladan ən güclü vasitələrdir. Ailə ənənələri məktəbəqədər yaşlı uşaqların sosial və mənəvi mədəniyyətinin formalaşmasında və inkişafında mühüm rol oynayır. Bunu nəzərə alaraq, ata-analar, baba-nənələr və gənc nəsillər ailələrində mövcud olmuş adət və ənənələrinə hörmətlə yanaşır, onları yaşadırlar.

Müvafiq ədəbiyyatın araşdırılmasından görünür ki, pedaqoqlar ailə ənənələrini sağlam ailə mühiti üçün zəruri hesab edirlər.

M.Ə.Muradxanov, Ə.Ə.Əlizadə, Y.R.Talıbov, H.Əliyev, Ə.Ə. Ağayev, A.N.Abbasov, S.M.Quliyev, R.İ.Əliyev, N.Çələbiyev və b., V.A.Suxomlinski, V.A.Titarenko, S.A.Kozlova, T.A.Markova, O.L.Zvereva, L.V.Zagik, D.O.Dzintere, L.D.Vavilova, E.S. Babunova, V.M.İvanova, T.A.Rapina və b. məktəbəqədər yaşlı uşaqlara ailə ənənələrinə hörmət hissinin aşılanmasının imkan və yollarını pedaqoji, psixoloji və metodik baxımdan araşdırmışlar.

Ailə cəmiyyətin özəyidir. Bu gün hər bir Azərbaycan ailəsində vətəndaş, gələcəyin əsgəri, həkimi, müəllimi, alimi, ata və anaları böyüyür. Onlara məhz bu yaşdan başlayaraq aşılanan müsbət əxlaqi keyfiyyətlər, hisslər onlarda ailələrə və cəmiyyətə düzgün münasibətin formalaşmasına gətirib çıxarır. Yəni dövlətin və ailənin göstərdiyi dəstək, diqqət və qayğı nəticəsində əslində cəmiyyətimiz formalaşır. Gələcək bu gün evimizdə, uşaq bağçalarında böyüyən uşaqlardan asılıdır. Onların yaşlı nəslin qoruyub saxladığı, günümüzə gətirib çıxardığı dəyərlərə, ənənələrə sahib çıxmaları və eyni şəkildə gələcəyə daşımaları lazımdır. Bu baxımdan ailə və məktəbəqədər müəssisələr böyük səy göstərməlidirlər. Həmin səylərin başında

uşağın dünyaya gəldiyi gündən fəal bir üzvünə çevrildiyi ailə ənənələrinə hörmətli münasibətin aşılanması durur.

Problemin aktuallığını nəzərə alaraq tədqiqatın mövzusunu "Məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanması" kimi müəyyənləşdirdik:

**Tədqiqatın obyektini** uşaqlarda milli adət və ənənələrə hörmət hissinin aşılanması təşkil edir.

**Tədqiqatın predmetini** məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanması təşkil edir.

**Tədqiqatın məqsədi** məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanmasının nəzəri əsaslarını, uşaqların ailə ənənələrinə münasibətinin məzmununu, ailə ənənələri ilə bağlı uşaqların ikin təsəvvürlərinin səviyyəsini müəyyənləşdirməkdən, onlarda ailə ənənələrinə düzgün münasibətin formalaşdırılmasında valideynlərin və tərbiyəçilərin əməkdaşlığının səmərəlilik şərtlərini və təsir imkanlarını üzə çıxarmaqdan və eksperiment yolu ilə təsdiq etməkdən ibarətdir.

**Tədqiqatın** qarşısında aşağıdakı **vəzifələr** dayanmışdır:

1)problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşunu araşdırmaq;

2)ailə ənənələrinin formalaşdırılmasına təsir edən sosial-pedaqoji amilləri müəyyənləşdirmək;

3)ailə ənənələrini məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin əsas vasitələrindən biri kimi araşdırmaq;

4)məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanmasının pedaqoji şərtlərini müəyyənləşdirmək;

5) məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə münasibətin məzmununu müəyyənləşdirmək;

6)məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə düzgün münasibətin formalaşdırılmasında valideynlərin və tərbiyəçilərin əməkdaşlığının səmərəlilik şərtlərini və təsir imkanlarını üzə çıxarmaq;

7)məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin yaradılması ilə bağlı təklif etdiyimiz metodikanı eksperiment yolu ilə təsdiq etmək.

**Tədqiqatın metodları:** nəzəri təhlil, müşahidə, müsahibə, pedaqoji eksperiment.

**Müdafiəyə çıxarılan müddəalar**:

1)uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanması üçün ən münasib vaxt məktəbəqədər yaş dövrüdür;

2)uşaqlarda mənəvi keyfiyyətlərin inkişafı və şəxsiyyətinin formalaşdırılması ailə ənənələrindən istifadənin səmərəliliyindən asılıdır;

3)məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin formalaşdırılması tərbiyəvi fəaliyyətin məzmun, prinsip, metod və təşkili formalarının düzgün müəyyənləşdirilməsindən və pedaqoji şərtlərə ciddi əməl edilməsindən asılıdır.

4)məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə düzgün münasibətin formalaşdırılması valideynlərin və tərbiyəçilərin əməkdaşlığının səviyyəsindən asılıdır.

**Tədqiqatın elmi yeniliyi** onunla şərtlənir ki, tədqiqatda məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanmasının nəzəri əsasları, uşaqların ailə ənənələrinə münasibətinin məzmununu, ailə ənənələri ilə bağlı uşaqların ikin təsəvvürlərinin səviyyəsi müəyyənləşdirilir, onlarda ailə ənənələrinə düzgün münasibətin formalaşdırılmasında valideynlərin və tərbiyəçilərin əməkdaşlığının səmərəlilik şərtləri və təsir imkanları üzə çıxarılır, bu sahədə qabaqcıl təcrübə ümumiləşdirilir, məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanması üzrə işin sistemi yaradılır.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyada irəli sürülmüş elmi ideyalar tərbiyə nəzəriyyəsini zənginləşdirəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqat məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanması sahəsində iş aparan valideynlərə və uşaq bağçası tərbiyəçilərinə əməli kömək göstərəcəkdir. Tədqiqatın nəticələrindən ali təhsil müəssisələrində ailə pedaqogikası üzrə tələbələrə, pedaqoji işçilərin ixtisasartırma və ya təkmilləşdirmə kurslarında tərbiyəçilərə oxunan mühazirələrdə və uşaq bağçalarında valideynlərlə müzakirələr zamanı faydalanmaq mümkün olacaqdır.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Təklif olunan iş sistemi Bakı şəhərinin Nəsimi, Xətai və Binəqədi rayonlarının uşaq bağçalarında tətbiq olunmuşdur. Tədqiqatın nəticəsinə dair 1-i xaricdə olmaqla elmi jurnallarda 6 məqalə dərc edilmiş, 1-i xaricdə olmaqla 3 beynəlxalq və respublika əhəmiyyətli elmi konfranslarda məruzə ilə çıxış edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi və tarixi şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya girişdən, 9 paraqrafı özündə birləşdirən 2 fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın girişi hissəsi 10000, I fəsil - 120000, II fəsil - 100000, nəticə hissəsi -6000 (ümumilikdə 236000 işarədən ibarətdir.

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSI

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, tətbiqi və aprobasiyası barədə yığcam məlumat verilir.

Dissertasiyanın I fəsli **"Məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanmasının nəzəri əsasları"** adlanır və dörd paraqrafdan ibarətdir. Fəslin *"Elmi-pedaqoji*

*ədəbiyyatda “ənənə” və “ailə ənənələri” anlayışlarının qoyuluşu”*adlı birinci paraqrafında tədqiqatın əsas anlayışının mahiyyəti üzə çıxarılmış, məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə qarşı hörmət hissinin aşılanmasının səbəbi, ailə ənənələri ilə bağlı Azərbaycan və xarici ölkə alimlərinin araşdırmaları təhlil edilmiş, onlarda ailə ənənələrinə hörmət hissinin aşılanmasının imkan və yolları müəyyənləşdirilmişdir.

“Ənənə” anlayışının yaranma tarixini araşdırdığımız zaman bu anlayışın əslində insan cəmiyyətinin meydana gəlmə tarixi ilə eyni dövrə təsadüf etdiyi qənaətinə gəldik. İbtidai cəmiyyətdə ənənələr hər bir işin müəyyən ardıcıllıq və qayda ilə icra olunmasında böyük rol oynayırdı. Maddi-mənəvi dəyərlər, iqtisadi-siyasi münasibətlər inkişaf edib dəyişdikcə ailənin formaları, ailə ənənələri dəyişmiş, müxtəlif forma və məzmun kəsb etmişdir. Ailənin inkişafı və aqibəti, təbii olaraq, cəmiyyətin tərəqqisi və aqibəti ilə bağlı olmuşdur. Ailə ictimai hadisə olmaqla yanaşı, eyni zamanda təbii-bioloji başlanğıca malikdir. İctimai həyatın mürəkkəb hadisələrindən biri olan ailənin və onunla bağlı münasibətlərin iqtisadi, bioloji, sosial-psixoloji və mənəvi aspektləri vardır.

Ailə dəyərləri, ailə ənənələri bizim həyatımızın başlıca prinsipləridir. Ailə ənənələri şəxsiyyəti tərbiyələndirir, təhsilləndirir və inkişaf etdirir. Bu mənada deyə bilərik ki, ailə ənənələri tərbiyələndirici, təhsilləndirici və inkişafetdirici xarakterə malikdir.

Ailə ənənələri: ailə həyatının qurulması, planlaşdırılması və fəaliyyətinin əsasında dayanır; uşaqların tərbiyəsində səmərəliliyi təmin edir; ailə ünsiyyətinin sabitliyi üçün əsasdır; ailə üzvlərinin sosial vəzifələrini, ehtiyaclarını və maraqlarını əlaqələndirir, ailə üzvlərinin birgə fəaliyyətini istiqamətləndirir; ailə üzvlərinin rollarını tənzimləyir; ailə üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi üçün meyar rolunu oynayır; ailə üzvlərini ailənin həyat şərtlərinə uyğunlaşdırmaq vasitəsi kimi çıxış edir; ailə üzvlərinin ənənəvi peşələrə (xalça toxuma, toxuculuq, tikiş, bəzək şüşə, ağac, plastik,

ağac üzərində rəsm, dəmirçilik, saxsı qab düzəltmə və s.) istiqamətlənməsinə, marağının artırılmasına imkan verir.

Ailənin bir çox ənənələri əsrlər boyu qorunub saxlanılmışdır: ailə həyat tərzi və kollektiv həyat üçün sədaqət, böyüklərə, ata-anaya, bacı-qardaşa, qohumlara hörmət, onların nüfuzunu qorumaq, ailə bayramlarını, ad günlərini keçirmək, ailə üzvlərinin uğurlarını qeyd etmək, ailə üzvlərinin asudə vaxtlarının səmərəli keçirilməsi və s. Uşaqların daxili aləmini zənginləşdirən ailə ənənələrinin əsas növləri aşağıdakılardır: 1)ailə bayramları və onlara həsr olunmuş ənənələr; 2) valideynlərin uşaqlarla keçirdiyi əyləncəli vaxt; 3)ailənin bir araya toplanması; 4)ailənin qonaqpərvərlik ənənələri, ailə üzvlərinin birgə yeməkləri; 5)ailədə əhəmiyyətli hadisələrin, bayramların qeyd olunması. 6)cəza və rəğbətləndirmə ənənələri; 7)yatmazdan öncə uşaqlara nağıllar danışmaq; 8)həftə sonunu birlikdə keçirmək, gəzintiyə çıxmaq, muzey və teatrlara getmək ənənəsi.

Ailə ənənələri uşaqların mənəvi tərbiyəsinin əsasını təşkil edir. Deməli, ailə ənənələri uşaqların pedaqoji, psixoloji, mənəvi, əxlaqi cəhətdən ailə həyatına hazırlanmasına kömək göstərir.

I fəslin *"Ailə ənənələrinin formalaşmasına təsir edən sosial-pedaqoji amillər"* adlanan ikinci paraqrafında məktəbəqədər yaşlı uşaqların tərbiyəsində ailənin rolu nəzərdən keçirilmiş, ailə–uşağı cəmiyyətlə birləşdirən mühüm bir ictimai qurum kimi öyrənilmiş, ailənin funksiyaları (reproduktiv funksiya, ekzistensial funksiya, sosiallaşdırma funksiyası, tərbiyə funksiyası, təsərrüfat funksiyası, kommunikativ funksiya və s.) haqqında geniş məlumat verilmişdir.

Ailə tərbiyəsində istifadə edilən tərbiyə metodları (inandırma, təlqin etmə, şəxsi nümunə, məsləhət, rəğbətləndirmə və cəza), rəhbərlik üslubları (avtoritar, demokratik, qoruyucu, xaotik və liberal) haqqında da bu paraqrafda geniş məlumat verilmişdir.

*"Ailə ənənələri məktəbəqədər yaşlı uşağın mənəvi tərbiyəsinin əsas vasitəlrindən biri kimi"* adlı I fəslin üçüncü paraqrafında ailə ənənələri məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin əsas

vasitələrindən biri kimi tədqiq və təhlil edilir. Paraqrafda uşaqlarda əxlaqi–mənəvi tərbiyənin formalaşdırılmasının 3 istiqaməti (idraki inkişaf, praktik fəaliyyət, kommunikativ) və mənəvi tərbiyənin komponentləri haqqında ətraflı məlumat verilmiş, tədqiqatçı alimlərin fikirlərinə münasibət bildirilmişdir.

***"Ailə ənənələrinə hörmət hissinin aşılanmasının pedaqoji şərtləri"*** adlı I fəslin dördüncü paraqrafında ailə ənənələrinə hörmət hissinin aşılanmasının pedaqoji şərtləri və ailənin vəzifələri müəyyənləşdirilmişdir. Paraqrafda əsaslandırılmışdır ki, ailə ənənələrinə hörmət hissinin aşılanmasında ailənin ortaq qərara gələ bilmək bacarığının və ailədaxili güvənin güclü olması mühüm rol oynayır. Uşaqlar valideynlər arasındakı qərarsızlığı hiss etməməli, bu məsələlərdə tərəf tutmaq mövqeyində olmamalıdır. Çünki bu yaşda olan uşaqlar son dərəcə həssas olur, bu və digər vəziyyəti yetərincə anlayırlar.

Kiçik yaşlı uşaqları milli mentalitetə uyğun tərbiyə etmək, onlar milli mənəvi dəyərlər əsasında formalaşdırmaq ailənin və məktəbəqədər müəssisələrin əsas vəzifələrindən biridir. Paraqrafda bu vəzifələrin reallaşdırılmasında həvəsləndirmə, könüllülük, maraqlandırma və cəlbetmə, fərdi yanaşma, süurluluq və fəallıq, inandırma, sistemlilik və ardıcıllıq prinsiplərindən istifadənin texnologiyası əsaslandırılmışdır.

Məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə dair təsəvvürlərinin yaradılması və bu təsəvvürlərin genişləndirilməsi onlarda yüksək əqli və mənəvi keyfiyyətlərin inkişafına zəmanət verir. Həmin uşaqların yaşına və anlaq səviyyəsinə uyğun şəkildə həyata keçirilərsə, bu prosesin sonunda uğurlu nəticənin alınması qaçılmazdır. Uşaqlar bu və ya digər işi niyə? və nə üçün? etdiklərini bilməyi sevirlər. Bu işin sonunda onları nə gözləyir? Uşaqların bu maraqlarını qarşılamaq və onlarda yaranan sualları cavablandırmaq hər zaman ailənin və tərbiyəçilərin üzərinə düşür. Uşaqlar aldıqları məzmunlu cavabla qane olurlarsa bu prosesi sorğusuz bir şəkildə

qəbul edir və o prosesin fəal iştirakçısına çevrilirlər. Əhatəsində olduqları situasiya onların maraq və diqqətlərini cəlb etmirsə, onda onlar bu prosesdən soyuyur və ondan qaçmağa çalışırlar.

Uşaqlarda ailə ənənələrinə hörmət hissinin formalaşdırılmasında pedaqoji şərtləri bilmək vacib rol oynayır. Dissertasiyada pedaqoji şərtlər aşağıdakı kimi qruplaşdırılmışdır: ailənin tipi; ailə üzvləri, uşaqların sayı, ailə üzvlərinin təhsil səviyyəsi və maddi imkan səviyyəsi, inkişaf tempi; ailənin həyat tərzi; ailənin psixoloji iqlimi, ailədaxili ünsiyyət, ailə fərdləri arasında münasibətlərin xarakteristikası; ailə üzvlərinin mədəni səviyyəsi; valideynlərin bir birinə olan münasibəti; valideynlərin pedaqoji mədəniyyətinin səviyyəsi; valideynlərin pedaqoji bilik səviyyəsi, onun tətbiq edə bilmə bacarığı və pedaqoji taktı; ailənin asudə vaxtı və istirahəti; valideynlərin KİV, sosial şəbəkələrdən istifadə imkanları; valideynlərin fərdi xüsusiyyətləri; ailənin təcrübəsi, valideynlərin peşə xüsusiyyətləri valideynlərin ictimai münasibətləri, ətraf aləmlə ünsiyyəti; ailə ənənələrinə sadiqlik; ailənin maddi və məişət şəraiti; ailənin yaşadığı coğrafi şərait və s.

Dissertasiyanın ***"Məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılnması üzrə işin təcrübi əsasları"*** adlanan ikinci fəslinin birinci paraqrafı *"Məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələri təsəvvürləri barədə"* adlanır. Uşaqların ailə ənənələrinə münasibətinin məzmununu müəyyənləşdirən aşağıdakıları nəzərə almaq vacibdir: 1) ailə ənənələrindən istifadənin pedaqoji və psixoloji əsaslarını nəzərə almaq; 2) böyük məktəbəqədər qruplar üzrə ailə ənənələrinin öyrənilməsi üçün zəruri sayılan təlim materiallarının məzmununu müəyyənləşdirmək; 3) məşğələdənkənar və asudə vaxtın təşkili prosesində öyrədilən ailə ənənələrinin məzmununu müəyyənləşdirmək.

Tədqiqatdan görünür ki, təlim-tərbiyə zamanı ailə ənənələrinin aşılanması prosesində uşaqların yaş xüsusiyyətləri, anlaq səviyyələri, maraq və meylləri nəzərə alınaraq iş təşkil

olunmalı, qruplaşdırılmalı və sistemləşdirilməlidir. Bu zaman müvafiq elmi pedaqoji-psixoloji əsaslara riayət edilməlidir. Həmin əsaslar tərbiyənin məqsədi, məzmunu və vəzifələri ilə sıx surətdə bağlı olmalıdır. Ənənələrdən istifadə zamanı aşağıdakı pedaqoji-psixoloji tələblərə əsaslanmaq lazımdır:1) böyük məktəbəqədər yaş dövrünün yaş xüsusiyyətlərinin nəzərə alınması; 2) uşaqların ailə ənənələrindən istifadə zamanı hər bir uşağın böyüdüyü ailənin tərbiyəvi imkanları və fərdi xüsusiyyətləri diqqət mərkəzində dayanması; 3) valideyn və tərbiyəçilərin şəxsi nümunəsinin və birgə fəaliyyətinin təmin edilməsi.

Ailə ənənələrinin aşılanmasında tərəflərin bir-birini tanıması, qəbul etməsi və inanması çox önəmlidir. Bu tərəflərin: valideyn–uşaq, tərbiyəçi–uşaq, valideyn–tərbiyəçi, uşaq–uşaq münasibətləri lazımi səviyyədə qurulmalıdır. Qarşılıqlı anlayış, işin mahiyyətini qarşı tərəfə ötürmə istəyi və arzusu bu işdə ilkin şərtdir. Tərəflərin qarşılıqlı münasibətləri düzgün qurulmazsa, istənilən nəticəyə nail olmaq çətindir.

Bu yaş dövründə uşaqlar ətraf aləmə maraq göstərirlər. Onlarda hər şeyi bilmək və öyrənmək həvəsi yaranır. Uşaqlar ətrafda cərəyan edən hadisələrlə maraqlanırlar. Valideynlər və tərbiyəçilər onların maraq və istəyinə laqeyd qalmamalıdırlar. Uşaqların suallarına onların anlaya biləcəyi tərzdə cavab verilməlidir. Əgər uşaqlar aldıqları cavablardan razı qalmazlarsa, tədricən onların axtarmaq, soruşmaq, öyrənmək istəkləri də azala bilər. Məktəbəqədər müəssisələrin böyük qruplarında apardığımız müşahidə zamanı da gördük ki, bu yaşda olan hər bir uşaq mahiyyətini bildiyi bu və ya digər məsələni öz həyatına tətbiq etməyə çalışır, bir növ işin məntiqini dərk edirlər.

Uşaqların cavablarına əsasən, məktəbəqədər yaşlı uşaqların ailə ənənələrinə münasibətini üç səviyyə üzrə təhlil edə bilərik: aşağı səviyyə - uşaq suallara ətraflı cavab verə bilmədi; orta səviyyə - uşaq

suallara qismən cavab verdi; yüksək səviyyə - uşaq bütün sualları ətraflı cavablandırdı.

Sorğunun nəticələri barədə aşağıdakı diaqram aydın təsəvvür yaradır:




**Diaqram 2.1.1.**

**Uşaqların ailə ənənələri haqqında olan təsəvvürlərinin öyrənilməsi**

Sorğunun nəticələrindən göründüyü kimi, uşaqların ailə, ailə ənənələri haqqında təsəvvürləri elə də yüksək deyildir. Görünür ailələr və tərbiyəçilər bu istiqamətdə yetərincə iş aparmırlar. Uşaqların bir çoxu suallara qeyri-dəqiq, bəzən isə çətinliklə cavab verirdilər. Onların öyrənilən problemlə bağlı təsəvvürləri qənaətedici deyildi, lakin suallara maraqla və diqqətlə qulaq asır, cavab verməyə

çalışırdılar. Hiss olunurdu ki, onlar ailə ənənələrinə qarşı laqeyd deyillər. Sualları cavablandıra bilməyən bəzi uşaqlarda məyusluq da hiss olunurdu. Ailələrdə yaşanan mövcud problemlərin təməlində ailə ənənələrinə lazımi marağın yaradılmaması dayanırdı. Ailə ənənələrinin ailəni birləşdirici və qoruyucu tərəflərinin olması bizi bunu deməyə əsas verir. Ailənin qarşılaşdığı bir çox problemlərin həllində ailə ənənələri həlledici rol oynayır. Bu baxımdan ailə ənənələrinə lazımi diqqətin ayrılması vacib şərtdir. Odur ki, məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmətli münasibətin formalaşdırılması üçün bu ənənələrə marağın yaradılmasına fikir verilməlidir.

Dissertasiyanın II fəslinin ikinci paraqrafı *"Valideynlərin və tərbiyəçilərin ailə ənənələrinə münasibətinin uşaqların tərbiyəsinə təsiri"* adlanır. Uşaqlar ailə ənənələrinə hörmət hissinin aşılanması ilə bağlı valideynlər və tərbiyəçilərlə söhbət edərkən onların bəziləri "uşaqlarla bu barədə söhbət aparmaq tezdir", "Onlar hələ uşaqdır", "Onlar hələ belə şeyləri başa düşmürlər." və s. bu kimi fikirlər səsləndirirlər. Bəziləri bu qənaətdə idilər ki, ailə haqqında olan təsəvvürləri uşaqlara məktəbəqədər yaşda deyil, ən tez məktəbə getdikdən sonra formalaşdırmaq lazımdır. "Bu yaşda olan uşaqlar yalnız oynamaq, məktəbə getmək haqqında düşünməlidir". Düzdür, bu cür düşünən valideyn və tərbiyəçilər çox deyildi. Lakin bu tərzdə düşünən valideyn və tərbiyəçilərin olması bizə tədqiqatın onlardan asılı olan tərəflərin əsaslı şəkildə tədqiq etməyə sövq etdi.

Valideyn və tərbiyəçi unutmamalıdır ki, uşaqların dünyagörüşü, həyat haqqında məlumatları məhdud olsa da, onların ətrafda baş verən proseslərə marağı, öyrənmək istəyi çoxdur. Onlar gördükləri, eşitdikləri şeylərin mahiyyətini bilmək istəyirlər. Bu baxımdan tədqiqatın uğurlu nəticə verməsi üçün ilk növbədə valideyn və tərbiyəçilərin ailə ənənələrinə münasibətini öyrənməyi lazım bildik. Çünki valideyn və tərbiyəçi nəyi təbliğ edirsə, necə düşünürsə, uşaq da onun düzgün olduğunu qəbul edir və mənimsəyir.

Ailə ənənələrinin aşılanmasında da valideyn və tərbiyəçilərin şəxsi nümunəsi həlledici rol oynayır. Onların özlərinin ailə ənənələrinə hörmət hissi ilə yanaşması, uşaqlara da bu hisslərin aşılanmasına səbəb olacaqdır.

Tədqiqatdan görünür ki, ailə ənənələrinin aşılanması prosesi istər ailədə, istərsə də məktəbəqədər müəssisələrdə biliklərin sistemsiz aparıldığı üçün bu iş uşaqlarda arzu olunan səviyyədə formalaşmır. Ailə ənənələrinin məktəbəqədər yaşlı uşaqlara lazımi səviyyədə aşılanması üçün hər iki tərəfin qarşılıqlı şəkildə bir-birinə yardımçı olması lazımdır. Sadəcə tərəflərin hər işdə olduğu kimi bu işdə də bir-birini dəstəkləməsi son dərəcə vacibdir. Valideyn və tərbiyəçilərlə iş zamanı tədqiqatın məzmununa uyğun bir neçə vəzifəni əsas götürdük: 1. Valideyn və tərbiyəçilərdə ailə ənənələrinin haqqında təsəvvürlərin genişləndirilməsi. 2. Uşaqlara ailə ənənələrinin aşılanmasının imkanlarının və səmərəli yollarının valideyn və tərbiyəçilərə aydınlaşdırılması. 3. Sorğunun nəticəsinə əsasən, ortaya çıxan problemlərin həllinə dair valideyn və tərbiyəçilərlə görüş və müzakirələrin keçirilməsi.

Pedaqoji və psixoloji biliklərə yiyələnən valideyn və tərbiyəçi uşaqların şəxsiyyət kimi formalaşmasında ailə ənənələrinin rolunu yüksək qiymətləndirir. Tədqiqat, müşahidə və sorğulardan görünür ki, sağlam ailə mühiti uşaqların ailə və onun ənənələrinə hörmət bəsləmələri gələcəkdə onların uğursuzluqlara qarşı daha dözümlü olmaların şərait yaradacaqdır. Uşaq tərbiyəçiyə və onun sözlərinə valideynləri qədər inanmalıdır. Hər iki tərəfin uşaqlar üzərindəki təsir gücü demək olar ki, eynidir. Uşağa valideynləri tərəfindən aşılanan dəyərlərin tərbiyəçilər tərəfindən də dəstəklənməsi onların inancını və etimadını iki qat artırır.

Sorğunun nəticələrindən aydın görünür ki, ailə ənənələrinə hörmət hissinin formalaşmasından ötrü hazırlanmış suallar məqsədəuyğundur və bu mövzu barədə eksperimentə cəlb edilmiş ailələrin fikirlərini ətraflı şəkildə izah etməsinə şərait yaradır. Onların

suallara tam və dolğun bir şəkildə cavablandırması üçün zaman verildi. Onlar suallara verdikləri cavabları nümunələrlə əsalandırmağa çalışırdılar. Verilən suallar valideyn və tərbiyəçiləri bu barədə yenidən düşünməyə sövq edirdi.

Cavabların təhlili zamanı aşağıdakı məsələlər də diqqət mərkəzində dayanmışdır: ailə ənənələrinə münasibət göstəriciləri valideynlərin 66%-də orta səviyyədə, 20%-də aşağı, 14%-də yüksək səviyyədə olmuşdur.

**Cədvəl 2.2.1**

**Valideynlər və tərbiyəçilərin ailə ənənələrinə münasibəti:**

| № | Məktəbəqədər müəssisələr | Valideyn və tərbiyəçilərin sayı | Suallara cavabların səviyyələri | | |
|---|---|---|---|---|---|
| | | | Aşağı | Orta | Yüksək |
| 1 | 22 №-li uşaq bağçası | 35 | 26 | 11 | 8 |
| 2 | 174 №-li uşaq bağçası | 47 | 30 | 8 | 9 |
| 3 | 266 №-li uşaq bağçası | 45 | 17 | 21 | 7 |
| 4 | 288 №-li uşaq bağçası | 43 | 10 | 19 | 14 |
| 5 | Qərənfil uşaq bağçası | 30 | 20 | 5 | 5 |
| | Cəmi | 200 | 94 | 63 | 43 |

Eksperimental qruplarda keçirdiyimiz sorğu nəticəsində uşaqların bu mövzuya böyük maraq göstərdiyini, lakin valideyn və tərbiyəçilərin bu ənənələrə laqeyd qaldıqlarını gördük. Valideynlərin bir çoxunun işləməsi, ailənin uşaqlara ayırdığı vaxtın yetərli

olmaması və s. bu kimi problemlərin yaranmasının əsas səbəblərindəndir. Onlar verdikləri cavabları əsaslandırmağa çalışsalar da bu kimi hallar mövcud vəziyyətin yaranmasına səbəb olur.

Tədqiqat göstərdi ki, valideynlər və tərbiyəçilərlə aparılmış məqsədyönlü və sistemli iş nəticəsində uşaqların ailədaxili fəaliyyətlərdəki rolu xeyli artmışdır. Uşaqlarda müşahidə olunan bu müsbət irəliləyiş elə valideynlərin də ailə ənənələrinə qarşı olan baxışını yenidən formalaşdırır və onlarda da ailə ənənələrinə hörmət hissini gücləndirir. Yəni bu tədqiqatın sonunda hər üç tərəf valideyn, uşaq və tərbiyəçi ailə ənənələrinin davam etdirimləsində maraqlı tərəfə çevrilirlər.

II fəslin üçüncü paraqrafı *"Məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanması imkanları"* adlanır.

Müşahidələrimizdən görünür ki, bəzi valideyn və tərbiyəçilər bu məsələyə yetərincə fikir vermir, diqqət yetirmir, ailə ənənələrinin tərbiyəedici imkanlarını görmürlər. Halbuki ailə ənənələrinə hörmət hissinin aşılanması prosesi hər zaman, xüsusilə də bu gün ailələrin qarşılaşdığı bir çox çətinliklərin artdığı bir dövrdə tərbiyəçilərin diqqət mərkəzində dayanmalıdır. Uşaqların diqqətini elə kiçik yaşlarında ailə ənənələrinə yönəltmək lazımdır.

İnsanın həyatının digərləri tərəfindən daha asan istiqamətləndirildiyi, formalaşdırıldığı və təqlid etdiyi yaş dövrü məktəbəqədər yaş dövrüdür. Bu imkanlardan vaxtında düzgün bir şəkildə istifadə edən bilən valideyn və tərbiyəçilər uşaq həyatında həlledici rol oynayır. Uşaqların tam, sərbəst bir şəkildə düşüncəsinin formalaşmadığı, çevrəsinin nəzarətsiz genişlənmədiyi başqa bir yaş dövrü yoxdur. Uşaqlar üzərində sahib olduqları bu imkanları vaxtında görə bilən valideyn və tərbiyəçilər uşaqların qarşılaşacağı bütün çətinliklərə qarşı onu daha yaxşı hazırlaya bilərlər. Bu işdə ailənin üzərinə düşən işi tərbiyəçi, tərbiyəçinin üzərinə düşən işi isə

validеyn görə bilməz. Hər iki tərəf başda ailə ənənələrinin aşılanması olmaqla bütün məsuliyyəti özü öz üzərinə götürməlidirlər.

Ailə ənənələrinə hörmət hissini aşılanması üzrə iş həm mürəkkəb, həm də maraqlı olduğundan bunu yalnız ailənin onlarla apardığı söhbət və ya fəaliyyətə cəlb etmək eyni zamanda məktəbəqədər müəssisələrdə keçirilən məşğələlərlə məhdudlaşdırmaq olmaz.

Uşaqlara ailə ənənələrinə hörmət hissinin aşılamaq üçün məktəbəqədər təhsil müəssisələri aşağıda tələbləri yerinə yetirməlidirlər: 1. Məşğələdənkənar keçirilən tədbirin məzmununun böyük qrup uşaqların bütün imkanlarına uyğunlaşdırmaq. 2. Tədbirlərdə uşaqların fəallığı üçün lazımi şərait yaradılmalıdır. 3. Fəaliyyət zamanı əyani vəsaitlərdən istifadə olunmalıdır. 4. Qrup tərbiyəçisi rollu – sujetli oyunlardan faydalanmalı, onlara yaradıcı yanaşaraq istiqamət verməlidir. Bu oyunlar zamanı ailə ənənələrinə hörmətli münasibət ön plana çəkilməlidir. 5. Tədbirlərdə uşaqların maraq və meylləri nəzərə alınmalıdır. 6. Valideynlərlə, pedaqoq və psixoloqlarla görüşlər təşkil olunmalıdır. 7. Məşğələdənkənar tədbirlərdə böyük qrup uşaqlarında ailəyə, ailə ənənələrinə, ailənin tarixinə, qohumlara və yaxınlara hörmət və məhəbbət hissi aşılanmalıdır.

Bu yaş dövründə uşaqların ailə daxilində göstərdikləri müstəqillik meylləri bizə imkan verir ki, onlarla ailə ənənələri ilə bağlı söhbətlər keçirək. Ailədə onlara aşılanan ailə ənənələrinin onlar tərəfindən necə qəbul olunduğunu və ya nəyə görə qəbul etmədiklərini öyrənə bilərik. Bəzən uşaqlarla aparılan söhbətlərdə valideynlərin ailə ənənələrini aşılanmasında göstərdikləri təkidlərin uşaqları istədiyimiz məqsəddən daha da uzaqlaşdırdığını görürük. Onların ailənin digər fərdlərinə qarşı münasibətini öyrənərək uşaq üzərində kimin az və ya kimin çox təsir gücünün olduğunu müəyyən edə bilərik.

**Dissertasiyanın II fəslin dördüncü paraqrafı "*Məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin***

***aşılanmasında ailə və məktəbəqədər tərbiyə müəssisələrinin birgə işi"* adlanır.**

Ailə və məktəbəqədər müəssisənin tərəfdaşlığı bu yaş dövründə uşaqlara güclü təsir gücünə malikdir. Lakin apardığımız tədqiqatlar zamanı gördük ki,  ailə ilə əməkdaşlığa bir o qədər də önəm verilmir. Onların bir çoxu belə düşünür ki, "biz uşağı daha çox nəzəri, elmi əsaslarla tərbiyə edirik, onlar gün ərzində ailədən çox bizlərlə vaxt keçirir, bu baxımdan onların uşaqlara olan təsir gücü bizimkindən daha azdır". Digər tərəfdən valideynlərlə müzakirələrdə valideynlər "övladımı məndən başqa heç kim mənim kimi tanıya bilməz, mən onu hamıdan daha yaxşı tanıyıram və tərbiyə edirəm. Sadəcə, gün ərzində işdə oluram deyə uşağımı bağçaya gətirmək məcburiyyətindəyəm"deyirlər. Bu və ya başqa bir şəkildə valideyn və tərbiyəçilərin öz öhdəliklərini qarşı tərəfin üzərinə atması uşaqlarda ailə ənənələrinin aşılanması məsələsini xeyli ləngidir. Biz bu yaş dövrünün görəcəyimiz işlə bağlı nə qədər mühüm bir yaş dövrü olduğunu bilirik. Valideyn və tərbiyəçilərin bu kimi əsaslandırmaları uşaqlara ailə ənənələrinin aşılanması məsələsini gecikdirir və uşaqlarda ailə ənənələrinə qarşı hörmət hissinin yaranmasının qarşısını alır.

Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyəçilər uşaqlarda ailə ənənələrinə hörmət hissi aşılamaq məqsədilə onları ətraflı öyrənməlidirlər.Bu iş aşağıdakı ardıcıllıqla həyata keçirilə bilər: a) ailənin pedaqoji savadının artırılması yönündə görülən işlər; b) gənc ailələrdə pedaqoji maarifləndirməni artırmaq; c)uşağın hərtərəfli inkişafında ailəyə yaxından kömək etmək.

Tərbiyəçilərin və valideynlərin uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanması məqsədilə apardıqları işlərin aşağıdakı istiqamətlər üzrə reallaşması məqsədəuyğundur:  uşaq bağçasında tərbiyə alan uşaqlarla valideynlərin ailə ənənələri ilə bağlı apardıqları işlərlə tanış edilməsi;  uşaqlarda ailə ənənələrinə hörmətli münasibətin formalaşdırılması üçün aparılan işlərdə ailənin üzərinə

düşən vəzifələri məsuliyyətlə yerinə yetirməsi; tərbiyəçilərin valideynlərə pedaqoji səpkidə söhbət aparması və onlara zəruri məsləhətləri vermələri; ailə və uşaq bağçasının birgə işinin uğurlu yollarının axtarılıb tapılması və həyata keçirilməsi; əlbir iş şəraitində uşaqlarda ailə ənənələrinə qarşı marağın və meyllərin artırılması; məqsədə çatmaq üçün KİV-dən faydalanmaq və s.

Dissertasiyanın II fəslin sonuncu, beşinci paraqrafı ***"Eksperimentin təşkili, aparılması və nəticələri"*** adlanır.

Problemlə bağlı eksperiment aparmaq üçün öncə məktəbəqədər təhsil müəssisələrini müəyyənləşdirdik. Eksperimentin ilkin mərhələsi müəyyənləşdirici funksiyaya malik idi. Bu məqsədlə Bakı şəhəri, Nəsimi rayonu "Qərənfil" körpələr evi-uşaq bağçası, 22, 174, Xətai rayonu 288, Binəqədi rayonu 266 nömrəli uşaq bağçalarında müəssisə və tərbiyəçilərlə söhbətlər apardıq, onların fəaliyyəti müşahidə olundu.

Bir sıra tədbirlər həyata keçirildi: 1. Eksperimentə ilk hazırlıq işi: məktəbəqədər müəssisənin, qrupların, tərbiyəçilərin müəyyənləşdirilməsi, şifahi və yazılı sualların, anketlərin hazırlanması; 2. Eksperimentin düzgünlüyünə nəzarətin təşkil olunması, tərbiyəçilərə zəruri göstəriş və məsləhətin verilməsi, iddiaçının eksperimentə şəxsən nəzarəti; 3. Eksperimenti yekunlaşdırmaq, tərbiyəçilərə paylanmış və uşaqlardan soruşularaq doldurulan anket suallarının cavablarının toplanması; 4. Eksperiment zamanı alınan cavabların toplanması və təhlili, nəticələrin ümumiləşdirilməsi və s.

Eksperimental işin metodikasının hazırlanmasında məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanmasının səmərəsini yüksəldəcək bir sıra pedaqoji şərtlərə əməl edilməsinin nəticələrini təhlil edib, ümumiləşdirmək dururdu. Məktəbəqədər yaşlı uşaqlar arasında ailə ənənələrinə hörmət hissinin aşılanması zamanı aşağıdakı pedaqoji şərtlər yerinə yetirildikdə daha təsirli olur:

-Böyük qrup uşaqlarının ailəyə, ailə ənənələrinə qarşı hörmətli münasibəti və onları davam etdirmə istəyi formalaşar.

-Ailənin dəyərini və mahiyyətini dərk edən bir şəxs kimi formalaşar.

- məktəbəqədər yaşlı uşaqlar və onların valideynləri arasında ailə ənənələrinə münasibətlərin vaxtında müəyyən edilməsi

-ailənin ənənələrinə hörmətli münasibət göstərmək üçün məktəbəqədər yaşlı uşaqlarla və onların valideynləri ilə müvafiq inkişaf və informasiya-maarifləndirmə işlərinin aparılması.

Eksperiment üç mərhələdə həyata keçirildi: müəyyənedici, öyrədici və yoxlayıcı.

Eksperimentə cəlb olunmuş böyük qrup uşaqlarının 45% -i ailə ənənələrinə orta səviyyədə, 37%-i yüksək səviyyədə və 18%-i aşağı səviyyədə hörmətli münasibət nümayiş etdirmişlər. Bunu aşağıdakı göstəricilərdən görmək mümkündür:




**Diaqram 2.5.1.**

**Eksperimentin nəticəsinin diaqram ifadəsi**

Göründüyü kimi, ailə ənənələrinə hörmətli münasibət bəsləyən uşaqların göstəricilər əhəmiyyətli dərəcədə artmışdır.

Aldığımız nəticələrdən böyük qruplarda uşaqların ailə ənənələri haqqındakı təsəvvürləri 22 nömrəli bağçada - 69 %; 174 nömrəli bağçada- 73 %; 266 nömrəli bağçada- 79 %; 288 nömrəli bağçada- 83 %; "Qərənfil" uşaq bağçasında 85 % -ə çatır. Bu ondan irəli gəlir ki, uşaqların müxtəlif illərdə ailə ənənələri ilə əlaqədar aldıqları biliklər yetərli olmuşdur.

Tədqiqatla bağlı aşağıdakı **nəticələr** əldə olunmuşdur:

1. Tədqiqatın ilkin mərhələsində məlum oldu ki, məktəbəqədər təhsil müəssisələrində uşaqların ailə ənənələrinə hörmətli münasibətin formalaşdırılmasına yetərincə diqqət yetirilmir. Bu məsələyə valideyn və tərbiyəçilərin laqeyd münasibəti müşahidə olunurdu. Ata-analar ailə ənənələrinə əməl etsələr də, ənənələrin təbliği ilə məşğul olmurdular. Odur ki, uşaqların ailə ənənələrinə dair təsəvvürləri son dərəcə zəifdir. Halbuki valideynlər və pedaqoji kollektiv anlamalıdırlar ki, onlar hansı dəyərləri aşılayacaqlarsa, uşaqlarda yaranan hisslər də o yöndə olacaqdır.

2. Məktəbəqədər təhsil müəssisələrində məşğələlərdə ənənələr ilə bağlı məzmun günün tələblərinə uyğun deyildir. Yerli kütləvi informasiya vasitələrində ailə ənənələrinin təbliği ilə əlaqədar verilişlər təşkil olunmur. Rəsmi məlumatlara görə, ölkəmizdə əhali günün 7-8 saatını televizor qarşısında keçirir. Televiziyada ailə məzmunlu, əsl azərbaycanlı ailəsinə məxsus saf, təmiz, pak dəyərləri və ənənələri təbliğ etmək lazımdır.

3. Aparılmış məqsədyönlü, sistemli iş nəticəsində ailə və uşaq bağçasının, valideynlərlə tərbiyəçilərin əməkdaşlığı, uşaqlara ailə ənənələrinə hörmət hissinin aşılanmasına müsbət təsir göstərir.

4. Tərbiyəçilərin və valideynlərin mütəmadi görüşərək uşaqların ailə ənənələrinə marağı və fəallığı barədə bir-birlərini məlumatlandırırması müsbət nəticə verir.

5. Məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinə hörmət hissinin aşılanması zamanı uşaqların yaş və anlaq səviyyəsinin nəzərə alınması yüksək səmərə verir.

6. Tədqiqat göstərdi ki, valideyn və tərbiyəçilərin pedaqoji maariflənməsi diqqət mərkəzində olduğu zaman səmərəli nəticələr əldə edilir.

7. Dissertasiyada ailə ənənələrinin zəruriliyinə dair yeni məzmun verilmişdir.

8. Ailə ənənələrinə hörmətli münasibət üzrə məqsədyönlü işlərin uşaqlarda ailəyə, valideynlərə məhəbbət hissini artırır.

9.Aparılmış sistemli, məqsədyönlü iş ailə ənənələrinin qorunması və davam etdirilməsini dərk edən uşaqların milli zəmində tərbiyəsinə, onların kamil insan kimi formalaşdırılmasına xidmət göstərir.

10.Ailə ənənələrinin gələcək nəsillərə çatdırılması üçün məktəbəqədər təhsil müəssisəsi, ailə və cəmiyyət arasından sıx əlaqələr qurulmalıdır.

11.Tədqiqatdan görünür ki, ailə ənənələrinin təbliğ olunduğu oyunlardan faydalanmaq və uşaqları bu oyunlara cəlb etmək lazımdır.

12.Məktəbəqədər müəssisələrdə böyük məktəbəqədər yaşlı uşaqların ailə ənənələri anlayışının hərtərəfli şəkildə dərk etməsi və bu məsələyə məsuliyyətlə yanaşması üçün valideynlərin iştirakı ilə il ərzində üç-dörd dəfə geniş səviyyəli tədbirlər, sərgilər, ustad dərsləri, pedaqoq və psixoloqların dəvət olunması, valideynlərlə görüşlər, konfranslar və s. keçirilməsi məqsədəuyğundur.

13.Tədqiqat göstərdi ki, valideyn və tərbiyəçilər uşaqlarla çalışan zaman qısa müddət ərzində böyük nəticələr əldə etmək istəyir, uşaqların imkanlarını, maraq və meylini nəzərə alınmırlar. Bu işində qısa müddət ərzində böyük nəticələr gözləmək düzgün deyildir. Bəzən uşaqlarla görüşlər, müzakirələr, söhbətlər və s dərhal nəticə

vermir. Bunun üçün valideyn və tərbiyəçilər səbirli və hövsələli olmalıdırlar. Hər istək kimi bu da dərhal reallaşmır.

Tədqiqatla bağlı aşağıdakı **təklifləri** irəli sürə bilərik:

1.Ailə, Qadın və Uşaq Komitəsi tərəfindən keçirilən "Ailə Akademiyası" adlı seminarlarda ailə ənənələrinin təbliğinə geniş yer verilməsi məsləhətdir. Bölgələrdə ailə mövzusunda maarifləndirmə işləri aparılarkən bu layihənin imkanlarından faydalanaraq hər bir şəhər, rayon və kəndlərdən olan ailələrə problemin mahiyyətinin və məzmununun çatdırılması məqsədəmüvafiq hesab olunur.

2.Böyüməkdə olan nəslin ailəni sevən, onun ənənələrini davam etdirən bir vətəndaş və şəxsiyyət kimi formalaşması üçün ailə ənənələrinə hörmətli münasibətə dair təbliğat işlərinin aparılması faydalıdır.

3.Uşağın ailə ənənələrinə olan münasibətini müəyyənləşdirmək, bu ənənələrə olan maraq və meylini öyrənmək məqsədilə tərbiyəçilərin ailələrə getməsi, yeri gəldikcə ailə ənənəsinin icrasında iştirakı arzuolunandır.

4.Tərbiyəçi və ailə əməkdaşlığının nəticəsi olaraq bukletlərin hazırlanması, məktəbəqədər müəssisələrə və valideynlərə paylanılması məsləhətdir.

Dissertasiyanın əsas elmi və təcrübi nəticələri aşağıdakı ***elmi məqalə və konfrans materiallarında*** öz əksini tapmışdır:


1. Ailə ənənələri məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəliliyinin əsası kimi / -Bakı: "Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi konfransın materialları. Naxçıvan şəhəri, NMİ, 2016. s. 92-93
2. Məktəbəqədər yaşlı uzaqlarda ailə ənənələrinə hörmətli hissinin formalaşdırılması üzrə işin bəzi məsələləri / -Bakı: Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransının materialları: 2 cilddə. 2018, s.375-377

3. Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində ailənin rolu // -Bakı: Məktəbəqədər və ibtidai təhsil, 2019. №-1, s. 57-59
4. Ailə ənənələrinin təbliğinin zəruriliyi // -Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri. 2019.№-2, s. 94-96.
5. Uşaq şəxsiyyətinin formalaşmasında ailə ənənələri mühüm şərt kimi // -Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri. 2019.№ -4, s. 33-35.
6. Ailədə uşaq tərbiyəsi ilə bağlı yaranan problemlərin başlıca səbəbləri // -Bakı: Humanitar elmlərin öyrənilməsinın aktual problemləri. 2019. №-5, s. 266-268.
7. Роль и место семейных традиций в семье / «Eurasia Science» Материалы XXIII Международной научно-практической конференции Research and Publishing Center «Actualnots.RF», Moscow, Russia 15, August, 2019, s.128-130
8. İnstilling respect for family traditions in preschool children (large group). «ПЕДАГОГІЧНІ НАУКИ» ВИПУСКИ ЗБІРНИК НАУКОВИХ ПРАЦЬ "ВІСНИК ПІСЛЯДИПЛОМНОЇ ОСВІТИ" СЕРІЯ «ПЕДАГОГІЧНІ НАУКИ» ВИПУСК 16(45) 2021. Elmi məqalə. s.140-156.
9. Valideynlərin və tərbiyəçilərin ailə ənənələrinə münasibəti // -Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri. Bakı. 2021.

Dissertasiyanın müdafiəsi "____" _____________ 2022-ci il tarixdə saat _____ da Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, Az7003, Naxçıvan Müəllimlər İnstitutu

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutu rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat " ___" __________ 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.06.2022
Kağızın formatı: 60×84.16/1
Həcm: 40000
Tiraj: 100